# ZÜLFÜQARIN "YAXŞILIĞ"I



**Şəddat CƏFƏROV,**
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

***(Əvvəli ötən sayımızda)***

İnsanı yaşadan, ona mənəvi güc bəxş edən əsas amillərdən biri də dövrün tanınmış simaları tərəfindən təqdir olunmasıdır. Hər bir şəxs müasirlərindən gördüyü rəğbətdən xüsusi məmnunluq duyur. Bu da ona imkan verir ki, həyatın necə şirin olduğunu özünün varlığında, düşüncəsində hiss etsin. Bunu da qeyd etmək lazımdır ki, dövrün yaradıcı insanları sadə adamlar tərəfindən həmişə uca tutulur. Onların qənaətləri, fikir və düşüncələri cəmiyyətin mənəvi stimuluna çevrilir. İnsanlar, xüsusilə sadə adamlar hər hansı bir şairin, zəka adamının dilindən kiminsə ünvanına poetik bir əsər yazıldığını eşidirsə, bunu sonsuz qibtə hissi ilə qarşılayır. Bu sarıdan mənim bəxtim gətirib.

Bizim cənub bölgəsinin söz-sənət adamları aparıcı nəşriyyatlarda işlədiyim dövrdə yanıma tez-tez gəlir, kitablarını, əsərlərini necə nəşr etdirmək haqqında məsləhətlər alırdılar. Mən də imkanım daxilində mənəvi dəstəyimi əsirgəmir, onlara düzgün yol göstərməyə çalışırdım. Belə ziyalılardan biri də Zülfüqar Qodmanlı idi. Mən artıq onun haqqında yuxarıda kifayət qədər əhatəli məlumat vermişəm. Ancaq burada bəzi məqamlara işıq salmaq istəyirəm.

Zülfüqar Qodmanlı cəmiyyətdə fəal mövqe tutan ziyalılardan və həm də şeirləri ilə oxucular arasında popoulyar olan, yaxşı tanınan şairlərdən olduğu üçün özünə çox güvənclı idi. Hiss edirdim ki, o mənim yanıma sadəcə kömək üçün yox, həm də özünə doğma bildiyi bir şəxsin yanına mənəvi təskinlik üçün gəlir. Axı şairlərin həmişə cəmiyyətdə bir sıxılan tərəfi də olur. Onlara elə gəlir ki, qeyriləri ilə müqayisədə müvafiq dairələr şairlərə ögey yanaşır. Onların yaradıcılığını qədərincə qiymətləndirmir, dəyər vermirlər. Təbiidir ki, Zülfüqar da şair idi və həm də həssas şair olduğu üçün özünün müəyyən qədər sıxıntıda hiss edirdi.

Zülfüqar Qodmanlının mənsub olduğu nəsil ziyalılığı ilə tanınırdı. Əlbəttə, onun kiçik qardaşı Ağəddin Mənsurzadəni burada mütləq xatırlayıram. Kiçik qardaşı Fəxrəddin Ziya da qələm adamıdır, şairdir. Müəlliflərin Azərbaycanın bu işıqlı ailəsi haqqında qeydləri elə mənim üçün də xüsusi maraq doğurur: "*Ağəddin Mansurzadə ilə sıx yaradıcılıq əlaqələrimiz olub. «Karvan gedir» adlı kitabına da Ön söz yazmışam. Hətta ömrünün son günündə belə - bəlkə də, bir gün əvvəl - mənə zəng edib, hal-əhval tutub, S.Rüstəmxanlı haqqındakı son yazısının nəşrini soruşub. Mən də həmin yazını çap etdyimi bildirdim... Hətta ustadın vəfatından sonra xatirəqarışıq kədərli duyğularımı da yazdım. ...Parlaq insan idi. Yazıları da özü kimi bütöv idi, sərrast, aydın məntiqlə qələmə alırdı. Fəxrəddin Ziyanı da ədəbi tədbirlərdən görüb tanımışam. Ağəddin Mansurzadə bünövrəli sözə bağlı, sözlə böyümüş yaradıcı idi. Fəxrəddin Ziya isə ixtisasca həkimdir. Ancaq görünür, ailə ənənəsinə uyğun olaraq sözə, sənətə o da bağlıdır. Zülfüqar Qodmanlı isə ilk gəncliyindən ağır zəhmət yolu keçərək öz bacarığı, səyi ilə həyatda tutarlı bir mövqe qazanmışdı. Təəssüf ki, onunla canlı ünsiyyətim olmamışdı. Ancaq imzasını, yazılarını ara-sıra görürdüm. Və dostum Ağəddin Mansurzadənin də dilindən qardaşı Zülfüqar Qodmanlı haqqında çoxlu söhbətlər dinləmişəm*". Bu qardaşların mənimlə həm yaradıcılıq əlaqələri olub, həm də dostluq münasibətlərimiz uzun illər davam edib. İndi də Fəxrəddin Ziya ilə hərdən görüşürəm. Əbədiyyətə qovuşmuş Ağəddin Mənsurzadəni, Zülfüqar Qodmanlını xatırlayıram. Fəxrəddin Ziya ilə təəssüratlarımı bölüşməkdən məmnunluq duyuram.

İnsafən, Zülfüqar yaxşı şair idi, sevilən şair idi. Axı həm də o, dövrün tələbinə uyğun olaraq, ideoloji sahədə də fəal fəaliyyət göstərirdi. Görünür, bu fəallığın lazımınca qiymətləndirilməməsi onu mənəvi cəhətdən incidir, bir qədər təbiətində küsgün əhval-ruhiyyə yaradırdı. Mən də onu həmişə diqqətlə dinləyir, darıxmağının, küsgün olmağının səbəblərini aydınlaşdırmağa çalışırdım və yalnız bundan sonra ona öz münasibətimi bildirir və bəzi məqamlarda xüsusilə səbirli, dözümlü olmağı tövsiyə edirdim.

İnsanlar təkcə tövsiyə, məslhəətlə ovunmur, gərək onların hər hansı bir işinə də əl yetirəsən, kömək olasan. Bu baxımdan Zülfüqarın kifayət qədər dəyərli yaradıcılığının, nəşri üçün də müəyyən təsir imkanlarından istifadə edirdim.

Görünür, *"Böyük portretin işığı"* kitabının müəllifləri də Zülfüqar Qodmanlı ilə mənim aramdakı münasibətin istiliyini ayrı-ayrı adamların təəssüratlarından, xüsusilə Zülfüqarın qardaşı Ağəddin Mənsurzadənin şifahi söhbələrindən, xatirə qeydlərindən də yaxşı öyrəniblər. Elə bu qardaşların kiçiyi Fəxrəddin Ziya da müasirimizdir, dövrümüzün tanınmış ziyalıları olan qardaşları ilə də isti münasibətdən o da xəbərdardır. Bir sözlə, hər hansı bir yazı, xüsusilə publisist yazı daha çox həyatdan qaynaqlanır. Həyat olub-keçənləri insanların, xüsusilə ləyaqətli insanların yaddaşında qoruyub saxlayır.

*"Böyük portretin işığında"* kitabının Zülfüqar Qodmanlı ilə mənim əlaqələrimə həsr olunmuş səhifələrini çevirdikcə, həmin şirin xatirələr xəyalımda təzədən canlanır. Elə bil ki, həmin qaynar, isti, mehriban, zarafatcıl Zülfüqar Qodmanlını canlı olaraq qarşımda təzədən görürəm. Çox səliqəli geyimi vardı. Onu da deyim ki, Zülfüqar daha çox geyimində Avropa üslubuna üstünlük verir. Danışığında, söhbətində dəqiqliyi sevirdi.

Səliqəli paltar, ağ köynək, qalstuk, başında da meksikan şlyapası... Onu bu görkəmdə görən nəşriyyat işçiləri özlərini yığışdırırdılar. Sanki başqa bir qitədən, başqa bir ölkədən gəlmiş yad bir adamı, hörmətli bir qonağı görürdülər. Söz yox, Zülfüqar Qodmanlı şəxsiyyətinə hörmət edən adam olduğu üçün elə həqiqətən hörmətli idi. Nüfuzunu cəmiyyətdə kifayət qədər qoruyub saxlayırıdı. Müəlliflər mənim bu rəğbətli münasibətimi kifayət qədər bildiklərindən "Zülfüqar Qodmanlının yaxşılığı" adlı qeydlərini də həyatdan gələn notlarla bəzəyə biliblər. Və doğru olaraq yazırlar: "*Ş.Cəfərov haqqında yazanların sırasında Z.Qodmanlının adını görmək qətiyyən təəccüblü deyil. Əskinə, bu, bir qanunauyğun haldır. Rəhmətlik Zülfüqar müəllim nə qədər ideologiya işçisi olsa da, təbiət etibarilə yaradıcı insan olduğundan tez-gec onun həyat yolu da Ş.Cəfərovun həyat yolu ilə kəsişməli olmuşdur. Elə kəsişmələr var ki, insanların bir daha görüşməsinə yer qoymur. Amma duyumlu insanlar yaradıcılıqla məşğul olanların hər biri Ş.Cəfərovla ilk tanışlıqdan sonra onunla əbədi dost olublar, bir-birinə bağlanıblar. Yəqin ki, Zülfüqar Qodmanlı ilə də dostluğun əsasında onun sözə, sənətə bağlılığı durub*". Doğru qənaətlərdir. Adamın təkcə geyiminə, ağıllı davranışlarına görə yox, həm də real əməlinə görə qiymət verirlər. Mənim də Z.Qodmanlı ilə dostluğumun əsasında müəlliflərin qeyd etdiyi kimi sözə, sənətə eyni bucaq altında baxmağımız dururdu.

Artıq dəfələrlə qeyd etmişəm ki, Azərbaycan şairləri məni sevə-sevə tərənnüm ediblər. İşimi, əməli fəaliyyətimi, insanlara, xüsusilə söz-sənət adamlarına hörmətli yanaşmalarımı, poeziyanın dili ilə qələmə gətiriblər.

Açığı, bütün bunlar məni həmişə sevindirib. Qəlbən qürurlanmışam. Axı şairlər elə həssas zümrədir ki, onlara *"haqqımda yaz"* desən, bu onların bəlkə də mənliyinə toxunar. Amma şairlə doğru-düzgün, səmimi rəftar edəndə onun ruhu poetik duyğular üstündə köklənir və bu zaman heç özünün də xəbəri olmur ki, sənə münasibətini poeziyaya necə gətirib.

Beləliklə, düşüncələrimi yazdıqca, Z.Qodmanlının mənə həsr etdiyi *"Yaxşılıq"* şeiri yaddaşımda təzələnir. Öz-özümə düşünürəm ki, gör kiçik bir yaxşılığı belə şairlər necə uca tutur, ona necə yüksək dəyər verirlər.

*"Böyük portretin işığı"* kitabının müəllifləri Z.Qodmanlının *"Yaxşılıq"* şeirinin yaranması ilə bağlı psixoloji durumu çox dəqiqliklə şərh edir, şeirin yaranma səbəblərini də həqiqətə uyğun şərh edirlər: "*Əlimizdə olan ədəbi materialların arasında Z.Qodmanlının Ş.Cəfərova həsr olunmuş iki şeiri var. Onlardan biri «Yaxşılıq» şeiridir. Doğrusu, şeirin yazılma tarixini dəqiq bilməsəm də, hər halda, yaxşılıq motivli şeirlər çoxdu. Və bu tipli şeirlərin sırasında Xalq şairi Söhrab Tahirin «Yaxşılıq» şeiri ədəbi-bədii siqlətinə görə xüsusi bir mərhələdir. Çox ola bilsin ki, Z.Qodmanlının «Yaxşılıq» şeiri də vəzn və ölçü baxımından çox uyğun gəldiyindən düşünmək olar ki, elə S.Tahirin «Yaxşılıq» şeirinin təsiri altında yazılıb. Buna baxmayaraq, Z.Qodmanlının «Dostum Şəddad üçün» etiqrafı ilə yazılmış şeiri insan təbiətinin rənglərini sözə gətirmək baxımından çox dəyərlidir. Bu şeiri oxuyanda insanın ziddiyyətli təbiəti oxucunun gözləri qarşısında çox aydın görünür. Və bu şeirin təsirilə əsərin qəhrəmanı haqqında da düşünməli olursan. Çünki «zənci saçları kimi qarışmış» dünyamızda yaxşılıq rütbəsini çiynində şərəflə daşıyanlar ümumi adamların sayından təəccüblü dərəcədə azdır. Yaxşılığı adamlara minnətlə, haqq-hesabla verənlərin bir yaxşılığı müqabilində insanı mənən alçaldan, onu yerlə-yeksan eləyən, qürurunu tapdalayanlar nə qədərdir?.. Amma Z.Qodmanlının yaxşılıq rütbəsilə təltif elədiyi Şəddad müəllim halal süfrələrin duzu kimidir. Duzsuz süfrədəki ən dadlı nemət də dadsız olar. Başqa sözlə, bəlkə də,' müəllif yaratdığı obrazı cəmiyyətə örnək olaraq göstərmək istəyir. Və onun təbiətindən gələn keyfiyyətləri tərənnüm etməklə cəmiyyətdə yaxşı adamların yerini və yaxşılığın mahiyyətini göstərmək istəyir*". Bu qeydlərin içində müəlliflərin çox səmimi duyğuları yer alıb. Doğru olaraq göstərirlər ki, yaxşılıq elə bir keyfiyyətdir ki, onu müəyyən minnətlə, haqq hesabla, kiməsə etdikdə son nəticədə tərəflər arasında münasibətlər kəskin ixtilafla qurtarır. Çox razıyam. Özü də, Z.Qodmanlı kimi həssas bir adama minnətlə yaxşılıq etməyin özü belə yaxşı qurtarmazdı. Bunlar elə məsələlərdir ki, gərək özün hiss edəsən, duyasan kiminsə necə danışmağı, necə davranmağı başa düşməlisən. Özü də o dövrdə mənim demək olar ki, şairlərdən keçəsi elə bir işim yox idi. Sadəcə şairlərin sözünü, sənətini uca tutmaq mənim təbiətimlə bağlı məsələ idi. Və bir gün gördüm ki, Z.Qodmanlı çox yüksəkj əhval-rusiyyədə gəlib. Görüşən kimi qovluğunu açıb hələ əlyazmada olan şeiri çıxartdı.

Onun maraqlı şeir oxumağı vardı. Özünü tənzimləyib xüsusi bir pafosla şeirin ilk bəndlərini oxudu:

*Ayaqlardan tutan nə az, nə də çox,*
*Duz kimisən, nə də azsan, nə də çox.*
*Dünyamızda kişi azdır, gəda çox,*
*Kişilərdə xoş əməldir yaxşılıq.*
*Yaxşılıqçün xoş təməldir yaxşılıq.*

*Tərs adamlar heç vaxt tutmaz əlindən.*
*Yıxılanda bədbəxt tutmaz əlindən.*
*Fürsət tapcaq tutacaqlar dilindən,*
*Həm gözəldir, həm qəşəngdir yaxşılıq,*
*Min-min güldən bir çələngdir yaxşılıq.*

Nə deyim? İndi bu şeirin təəssüratını mən təzədən təhlil etmək istəməzdim. Çünki "Böyük portetin işığı"-nın müəllifləri şeirin elə ilk iki bəndini xüsusi həssaslıqla təhlilə çəkib, fikir və düşüncələrini maraqlı ovqatla yazıya gətiriblər.

Özü də hər hansı bir həssas oxucu diqqət etsə görər ki, "Yaxşılıq" şeirin müəllifi Z.Qodmanlı şeirin misraları arasına cəmiyyətin təzadlarını kifayət qədər ilhamla, xüsusi duyğu ilə gətiriblər. Həm də müəllifin, yəni şairin qənaəti belədir ki, hər kəs yaxşılıq etməyi də bacarmaz, bunun üçün xüsusi qəlb genişliyi, insanlığı uca tutan ləyaqət hissi olmalıdır.

***(Davamı 9-cu səhifədə)***

# ZÜLFÜQARIN "YAXŞILIĞ"I

*(Əvvəli 8-ci-cu səhifədə)*

Müəlliflərin şeiri təhlil edən dəyərli düşüncələrini burada oxucuya çatdırmaq özümə də bir məmnunluq gətirir: *"Tərs adam, kəmfürsət insan əldən tuta bilməz. O, öz niyyətinin icraçısıdır. Onun təbiətindəki eqo bütövlükdə tərsliyinin, mənəmliyinin iddiasına köklənib. Belələri fürsət düşəndə insanın sadəlövhlüyündən, hər hansı bir xətasından tələ qurur. Məqsəd özünün halallığına, mənəvi böyüklüyünə güvənib cəmiyyətdə qürurla yaşamaq haqqını qoruyanları sındırmaqdır. Onları gözükölgəli, möhtaclı vəziyyətə salmaqdır. Belələri qətiyyən cəmiyyətin üstün mənəvi tərəzisinə uyğun gəlmir. Belələrinin təbiəti cəmiyyətə fayda verməyə imkan verməz. Bəlkə də, belələri heç şairin dediyi kimi, nə yaxşılıq bacaran deyil, nə də heç olmasa, ziyankarlıqdan kənar durmağı da bacarmırlar. Belələrinin xisləti cəmiyyətə mənfi enerji ötürməkdən ibarətdir. Amma belələrinin əksinə olaraq dünyada elə insanlar var ki, onlar yer üzünə Tanrının sovqatıdır. Məhz belələrinin sayəsində cəmiyyət mənəvi tarazlığını qoruyub saxlaya bilir".* Yəqin ki, bu qeydləri oxuyan hər kəs ətrafında olan adamların hansı təbiətdə olduqlarını xəyallarında canlandıra bilərlər. Yəqin ki, bu adamların hansının yaxşı, hansının pis olduğu qənaətini də özləri verə bilirlər.

Əlbəttə, cəmiyyətdəki insanları yaxşı tanımaq üçün hər kəsə bir ömür gərəkdir. İllər boyu vaxt sərf edirik, hətta elələri olur ki, yaxın dostluq münasibətləri də qururuq. Ancaq bir vaxt gəlir ki, kiçicik bir çətinlik onların necə gizlədilmiş mənfur təbiət sahibi olduqlarını üzə çıxarır. Şübhəsiz, belə məqamlarda biz təəssüf edirik. Ötən illərdəki yaxşı münasibətlərin necə havaya uçduğuna acıyırıq. Bir növ qəlbən göynəyirik. Hələ üsətlik, yaxşı adamları sındıran, onlara qarşı qəddar münasibət göstərən varlıqları da tanımaq, haqlarında əhatəli, ətraflı düşünmək bizə bir çox həyati məsələləri də anladır. Yəni həyatın mürəkkəbliklərindən baş çıxarmaq hər kəsdən xüsusi mənəvi güc tələb edir.

Biz hər hansı məsələni şərh edərkən düşüncələrimizi müəyyən axara gətirmək üçün fikirlərimizə don biçərkən müəyyən psixoloji gərginlik keçiririk. Bu da onunla bağlıdır ki, öz düşüncələrimizi yazıya gətirərkən məsuliyyət hissimizi unutmuruq. İnsan nə qədər məsuliyyət hissini qoruyub saxlayırsa, bir o qədər cəmiyyət tərəfindən təqdir olunur. Məsuliyyət hissini unutmayan adamlara şəxsiyyət kimi cəmiyyət həmişə xüsusi hörmət göstərir.

Şairlər isə şəxsiyyətləri məmnunluqla tərənnüm edir və bundan xüsusi zövq alırlar. Eyni zamanda şəxsiyyətləri tərənnüm edərkən əks qütbün təmsilçilərinə də sərt, tənqidi yanaşmalarını gizlətmirlər. Necə ki, Z.Qodmanlı *"Yaxşılıq"* şeirində bu münasibətini gizlətmədən, bütün açıqlığı ilə oxucuya çatdırmaq istəyir.

*Nə ölçüyə, nə çəkiyə gələndir,*
*Nə evinə, nə səkiyə gələndir.*
*Nə yaxşılıq, nə yamanlıq biləndir,*
*Dünyamızın sovqatıdır yaxşılıq,*
*İnsanlığın ovqatıdır yaxşılıq.*

*Nə meyvədir, nə çörəkdir yeyəsən,*
*Nə paltodur qızınmaqçün geyəsən.*
*Xoşbəxtlikdir, olsan onu deyəsən,*
*Qayğı, hörmət, sədaqətdir yaxşılıq,*
*Kişilikdir, ləyaqətdir yaxşılıq.*

Hər gün gözlərimizin önündən müxtəlif görkəmdə insanlar keçir. İlk baxışdan biz onların hansı əqidədə olmaqlarını, evdən hansı məqsədlə çıxdıqlarını bilməsək də, hər halda bu adamlardan çoxunun halal zəhmət üçün ilk başına tələsdiklərini təsəvvür etmək çətin deyil. Amma hamı belədirmi?

Elələri var ki, öz başında, hətta iş yerinə müəyyən məclislərə, tədbirlərə öz kinlərini, küdurətlərini də aparırlar. Başqa birinin uğuruna qətiyyən sevinməyən adamlar var ki, onlar əslində cəmiyyəti qarışdıran adamlardır. Cəmiyyətin sağlam mənəvi simasına belələri ləkə salır. Və biz çox təəssüf edirik ki, cəmiyyətdə insanlığın adına yaraşmayan əməl sahibləri də var.

Poeziya insanların ruhunu saflaşdırır, ümidi öləziyəni həyatla mübarizəyə səsləyir. İnsanların inamını qoruyur. Həyatın daha yaşarı olduğuna onlarda inam yaradır.

Mən birmənalı deyirəm ki, Z.Qodmanlı da "Yaxşılıq" şeiri ilə cəmiyyətə sağlam düşüncə, mənəvi dəyər aşılayır, özü də yüksək əyarlı mənəvi dəyər. Pisləri tənqid etməklə insanları pislikdən çəkindirir, yaxşıları tərənnüm etməklə insanları yaxşılığa doğru səsləyir. Bütün bunlar göstərir ki, şairlər cəmiyytin mənəvi həkimləridir.

"Yaxşılıq" şeiri mənim ünvanıma ithaf olunsa da, əslində bu şeir elə bütövlükdə cəmiyyətə ünvanlanıb. İnsanları daha uca ali keyfiyyətlərə çağırış ruhunda yazılıb. Elə kitabın müəllifləri də şeirin təhlili zamanı bu motivləri oxucunun diqqətinə çatdırırlar: *"Şeiri oxuduqca gözlərimizin önündən dəyişən insan mənzərələri keçir. Bu mənzərələrin fonunda fiziki cəhətdən güclü, boylu-buxunlu, yaxud cismən zəif, fiziki olaraq canında ağrılar, yaralar daşıyanları da görə bilirik. Ancaq biz onların arasından mənəvi cəhətdən uca olanları, ləyaqətilə seçilənləri asanlıqla, bəri başdan görə bilmirik. Əsas odur ki, belələrilə gərək ünsiyyət olsun. Heç ünsiyyət olmasa belə, yaxşı adam öz xilətini, yəni yaxşılıq təbiətini haqqın tapdana biləcəyi bir məqamda üzə çıxara bilər. Çünki şairin dediyi kimi, yaxşılıq deyilən nəsnə elə haqqın qorunmağıdır. Tanıyıb-tanımadığın hər hansı bir şəxsə ehtiyac var isə qayğıdır, kiçiyə köməkdir, böyüyə hörmətdir, ehtiramdır. Bir sözlə, bir daha deyirəm ki, Z.Qodmanlının özünün dediyi kimi, insanlığa sədaqətdir, kişilikdir, ləyaqətdir və s. Əgər bu şeirin yazılan vaxta qədər müəllif tərənnüm etdiyi, əsərinə ədəbi qəhrəman seçdiyi şəxsi yaxından tanımasaydı, onun təbiətinə yaxından bələd olmasaydı, yəqin ki, heç onun ilhamı da insan təbiətinin görünən və görünməyən mənzərələrində belə qanad çala bilməzdi. Şair bir növ yaxşılığın poetik təhlili fonunda psixoloji tədqiqat da aparır. Belə qənaətə gəlir ki, hətta düşməni də yaxşı əməllə, ləyaqətli münasibətlə yaxşı etmək olar".* Müəlliflərin qənaəti ilə tam razıyam. Burada bir hadisə də gözlərimin önündə canlanır. Xalq şairi Söhrab Tahir təltif olunan zamanı Ulu öndər Heydər Əliyevin hüzurunda "Yaxşılıq" adlı şeirindən bir neçə bənd dedi. Həmin şeirin də motivində belə bir həqiqət dayanırdı ki, insanların yaxşı əməlini təqdir edəndə onlar daha da yaxşı olmağa çalışırlar. İndi Z.Qodmanlının "Yaxşılıq" şeirinin ayrı-ayrı bəndlərini oxuduqca, bu şeirin təhlilinə həsr olunmuş ədəbi-publisistik qeydləri nəzərdən keçirdikcə poeziya ustadlarının doğru qənaətləri ilə mən də tamamilə həmrəy olduuğumu bildirirəm.

Bu gün də oxuduqca Z.Qodmanlının "Yaxşılıq" şeirindən doymuram:

*Yaxşılıqla yaxşı olar düşmənin,*
*Yaxşılığı yada salar düşmənin.*
*Yana-yana susub qalar düşmənin,*
*Ad-sanını yaşadandı yaxşılıq,*
*Ucalandır, ucaldandır yaxşılıq.*
*Yaxşılıq et, apar dəryaya tulla,*
*Yaxşılığı nə qızılla, nə pulla,*
*Satın almaq olmaz onu bu yolla,*
*Xaliq bilməz, balıq bilər yaxşılıq,*
*Balıq bilməz, xaliq bilər yaxşılıq.*

Z.Qodmanlı canlı xalq dilini yaxşı bilirdi. Zarafatlarında, söhbətlərində də xalqdan gəlmə deyimlərdən ustalıqla yararlana bilirdi. Onun poetik yaradıcılığında, publisistikasında eldən gələn misallar, atalar sözləri oxucuya mətni şirinliklə çatdırmaqda xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə də Zülfüqarın şeirləri oxucuların dilində əzbər olurdu. Mənim yaxşı yadımdadır. Bizim ail ailə bağlı məclislərdə, ad günlərində Z.Qodmanlının "Yaxşılıq" şeiri poeziyasevər doslarımın dilindən əzbər deyilir və bu da diləyicilərdə çox xoş ovqat yaradırdı.

Mən həmişə söz sərraflarının əhatəsində olmuşam. Sözü ustalıqla işlədən müəlliflərə söz sərrafları hər vaxt yülsək dəyər veriblər. Bu da istər-istəməz şairin xalq arasında tanınmağına, ən başlıcası, sevilməyinə səbəb olur. "Böyük portretin işığı" kitabının müəllifləri də Z.Qodmanlının həm poetik obraz yaratmaq məharətini, həm də el dilindən ustalıqla istifadə etmək imkanlarını ədəbi-publisistik səciyyə ilə oxucuya çatdırırlar: *"Xalq arasında misal var deyərlər ki, «yaxşılıq elə at dəryaya, balıq bilməsə də xaliq bilər». Mən bu məsəli uzun illərin dostluğu fonunda Şəddad müəllimin dilindən çox eşitmişəm. Hətta indiki zamanın kommersiya mühitində müəyyən iş müqabilində özünün halal qazancından da imtina edir. Təki kitabını çap etdiyi hər hansı bir müəllifi sevindirsin: əgər qazanc məqsədilə imkansız bir yazıçını maddi təminat verə bilmədiyi səbəbdən geriyə qaytarsaq, onun yaradıcılıq istəyi məhv olar, ilhamdan düşər, yazıya, sənətə ikrah eləyər. Gərək belələrinə güzəşt edə biləsən. Heç olmasa, ilk kitabının çapına şərait yaradasan. Hər hansı bir müəllif əsərinin nəşrini görəndə sanki dünyaya yenidən gəlir». Şəddad müəllimin bu sözlərini yəqin ki, bir zamanlar Z.Qodmanlı da çox eşidib. Bəlkə, elə bu səbəbdən də «balıq və xaliq» misalını şeirin ruhuna tam tabe etdirə bilib. Onun düşüncəsində yaxşı adam üfüqün gün doğanından gün batanınacan - bütün qövsün hakimidir. Yaxşılığın bir mahiyyəti də odur ki, gərək Ş.Cəfərov kimi cəmiyyətdən üzü sənə tərəf gələn bədxahlıqları, acılıqları görməzliyə vura biləsən. Bu hallar gərək səni öz yolundan döndərə bilməsin".* Əlbəttə, bu qeydləri oxuduqca yaxşılığın mənəvi obraza çevrilən mahiyyətini duymaq mənə nə qədər məmnunluq gətirir.

İnsanlar arasında yaxşılıq etmək qabiliyyəti həm də cəmiyyətin mənəvi nizamına kömək edir. İnsanlar arasında münasibət harmoniyası yaxşılıq mahiyyətindən bəhrələnmək ilə tənzimlənir. Elə adamlar var ki, bu yaxşılıq şeirini oxuyanda yəqin ki, öz həyatı, öz keçmişi haqqında da əhatəli düşünür. Yəqin ki, özünə sual verənlər də var ki, həyatı boyu hansı yaxşılıqların müəllifi olub. Hansı yaxşı əməlin sahibi kimi tanınıb. Belə sualları özünə verən adam yəqin ki, həyatının axarını da təmin etmək gücündə olur. Bir sözlə, özünə tənqidi yanaşan adam yəqin ki, asanlıqla pislik edə bilməz. Zülfüqar Qodmanlı da yaxşılığın nə demək olduğunu axıracan dərk etdiyinə görə yaxşılıq şeirinin uğurunu təmin edə bilib.

Həqiqətən, Zülfüqar Qodmanlının "Yaxşılıq" şeirində oxucunun ruhuna təsir edə bilən misralar, mənalar xüsusi duyğular yaradır. Şeirin poetik ruhu hər kəsdə fərəh doğurur.

*Həm gün batan, həm də ki, gün doğandır,*
*Nə danqazdır, nə özünü boğandır.*
*Acıdilçün sarımsaqdır, soğandır,*
*Şirindilçün bir mahaldır yaxşılıq,*
*Acıdilçün kardır, laldır yaxşılıq.*

*Nə ətirdir, ətirdən xoş ətri var,*
*Nə çörəkdir, çörək qədər xətri var.*
*Nə qalxandır, qalxan kimi çətri var,*
*Qoruyacaq səni, məni yaxşılıq,*
*Bu torpağı, bu vətəni yaxşılıq.*

Şeir beləliklə, sona çatır. Və şeirin ictimai məzmunu həm də onunla yekunlaşır ki, insan əməlinin yaxşı keyfiyyətləri, bir sözlə. Yaxşılıqlar təkcə ayrı-ayrı adamları, fərdləri yox, elə torpağı da, vətəni də qoruya bilir. Xalqına, ulusuna doğma olan, torpağını, vətənini sevən adam əgər əməlində yaxşılığı əsas tutursa, demək, elə xalqına yaxşılıq edir, vətəninə yaxşılıq edir. Bu da istər-istəməz cəmiyyətin ruhunu saflaşdırır.

Xalqımız, vətənimiz fədakar ziyalıların təlqin etdiyi yüksək insani hisslərlə zənginləşir, mənən zəngin insanların diyarına çevrilən Azərbaycan isə dünyada tanınır. Beləliklə, şairlər, söz-sənət adamları insanların yaxşılıq etmək qüdrətini tərənnüm etməklə vətəni də ucaltmış olurlar.

"Böyük portretin işığı" kitabının müəlliflərinin qeydlərini sanki öz varlığımdan gələn yazı mətni kimi oxuyuram. Çünki bu düşüncələrdə həm müəllif məntiqinə münasibət, həm də şeirin həsr olduğu ünvan olaraq mənə xüsusi diqqət açıq-aydın duyulur: *"Başqalarını deyə bilmərəm, bu şeirin hər misrasını oxuduqca bu yazılardan ruhuma axan xoş təəssüratını fikrimdə cəmləyib, ümumiyyətlə, insanlığa aid etmək istədim. Amma gördüm ki, çoxları bu epitetlərə layiq ola bilmir. Ş.Cəfərov və onun kimi bir neçə dostumu xəyalımda müsahib kimi görürəm və onlarla dillaşəndə düşünürəm ki, elə Z.Qodmanlının «Yaxşılıq» şeiri oxuyuram. Bu şeirin qələmə alınmasından az qala otuz ilə yaxın (22 sentyabr 1992) zaman keçib. Bu, o zaman idi ki, Azərbaycanda siyasi kataklizmlər hər şeyi alt-üst etmişdi, mənəvi meyarlar itmişdi. İnsanlar bir-birindən ehtiyat edirdi. Siyasətbazlıq, əqidə korluğu insanların təbiətini sınağa çəkirdi və çoxları da bu sınaqdan alnı açıq çıxa bilmirdi. Amma görünür, Z.Qodmanlı həmin gərgin zamanda, ən ali insani keyfiyyətlərin şüşə kimi çiliklәndiyi bir vaxtda Şəddad müəllimi yenə özünün mənəvi ucalığında görmüş və onu yuxarıda qeyd etdiyimiz kimi, mənəviyyatın təyinedicisi olan yaxşılıq adlı bir rütbə ilə təlbif etmiş, qəlbindən, ruhundan gələn duyğularını poetik örnəyə çevirmişdir".* Mən müəlliflərin fikri ilə şərikəm. Zülfüqar Qodmanlı ünvanıma həsr etdiyi şeirində, şübhəsiz ki, tərənnüm obyekti olaraq məni də yaxşılıqların müəllifi kimi idealizə edir və bununla cəmiyyətə belə bir qənaəti çatdırır ki, hər kəs özünün əməli ilə yaşarlıq haqqını qazana bilər. Görünür, insanların taleyi həm də əməli ilə nizamlanır. Əgər əməli fəaliyyətdə yaxşılıq daha qabarıq görünən, duyulan, xarakterik cəhətdirsə, onda cəmiyyətin yaddaşında yaxşılıq ünvanı ilə yaşamağın özü də çox dəyərlidir.

Yaxşılıqlar nə qədər ki, insanın ünvanıdır, həmişə insanlıq uca tutular.

**20.12.2022**

# ZÜLFÜQARIN "YAXŞILIĞ"I

*(Əvvəli 9-cu səhifədə)*

Yaxşı bilirəm ki, mənəvi hazırlığı, tanrıdan gələn istedadı ilə yazıb-yaradan hər bir sənətkar öz dövrünə, zamanına münasibət bildirməlidir. Yəqin ki, hər bir münasibətin özündə də bir subyektivlik var. Yəni şəxs özü dövrünü, zamanını necə qavrayırsa, münasibətini də həmin yöndən bildirməyə çalışır. Yaxşı olar ki, sənətkarın şəxsi mövqeyi həyat hadisələrinin obyektiv təzahürünə uyğun gəlsin. Son vaxtlar bəzi müəlliflərin Azərbaycanın tarixi taleyi üçün vacib olan hadisələrə münasibətləri ilə bağlı mübahisələr silsiləsi bitib tükənmir. Bunun səbəbi nədir? Suala cavab verməzdən əvvəl Əkrəm Əylislinin *"Daş yuxular"*ını yada salaq. Şübhəsiz, Əkrəm Əylisli istedadlı sənətkardır. Dövlətimiz tərəfindən onun istedadına və dəyərli bədii yaradıcılığına kifayət qədər yüksək qiymət verilib. *"Xalq yazıçısı"* fəxri adı ilə təltif olunmuşdu. Başqa da dəyərli dövlət təltifləri vardı. Hətta prezidentin fərdi təqaüdünü də alırdı. Heç bir kimsə də yazıçıya necə yazmağı haqqında göstəriş vermirdi. Onsuz da yazıçı öz vicdanının diktəsi ilə işləməlidi. Yazdığı, yaratdığı insanlığa xidmət etməli, insani dəyərləri qorumağa çağırmalıdır. *"Daş yuxular"*ın müəllifi isə uğrunda qanlar tökülmüş minlərlə gəncin, saysız-hesabsız günahsız insanların ölümünə bais olmuş, düşmən niyyətlərinə, demək olar ki, açıq-aşkar haqq qazandırır. Bu da dövrə münasibətdir. Tam subyektiv münasibətdir. Heç bir obyektiv həqiqətə tabe olmayan münasibətdir. Yaxud İran rejimini təbliğ edənlər o taydakı soydaşlarımızın dilindən, yazısından, tarixi köklərindən məhrum edilməsini açıq-aşkar qulaq ardına vurur, başqa sözlə, şovinist niyyətlərə haqq qazandırırlar. Fanatizmi, xurafatı əldə bayraq etməyə çalışırlar.

Bütün bunları niyə yada salıram? Mənim də haqqımda yazan müəlliflər çoxdur. Mənə xoş gələn isə haqqımda yazılan mətnin tərifli notları deyil. Bu mətnlərdə mən həyat həqiqətini axtarıram. Əgər həyatla, cəmiyyətlə, insanlıqla bağlı həqiqətlər düzgün təqdim olunursa, müəllifin mövqeyi humanizmə xidmət edirsə, bunu özüm üçün mənəvi bir mükafat hesab edirəm. Düşünürəm ki, yazıçı ünvanıma hörmətli, ehtiramlı münasibəti əsas götürsə də, əsil həqiqətdə cəmiyyətin mənəvi əxlaqi normalarını daha üstün meyar hesab edir. Yaxşının, pisin fərqini görmək və bu ziddiyyətli tərəflərin sərhədlərini göstərmək yazıçının təkcə istedadından asılı deyil. Sənətkarın gərək özünün mövqeyi aydın olsun. Nə qədər ki, sənətkarın mövqeyi aydın deyil, yaxud şübhəlidir, onda həqiqətə tabe olan nizam da pozulacaq. Yaratdığı əsər məhz dumanlı mövqeyinə görə, bəlkə də, şübhəli məqsədinə görə etirazla qarşılanacaq. Necə ki, *"Daş yuxular"* sənətkardan həqiqəti göstərən əsəri arzulasa da, əks nəticə cəmiyyətdə sanki şok effekti yaratdı.

Əlbəttə, ucuz tərif, həqiqi sənətdən kənar qafiyəbazlıq insanların yaddaşında yer tutmur. Bu da etirazla qarşılanır. Ancaq bu etiraz yazılanın sənət olmaması ilə bağlıdır.

*"Böyük portretin işığı"* kitabının müəllifləri haqqımda yazılan poetik örnəkləri təhlil edərkən məhz cəmiyyətin ağ və qara rənglərinin mahiyyətinə daha çox diqqət yetirirlər. Çünki bu rənglərin təzadları əslində cəmiyyətdəki ziddiyyətlərin göstəricisidir.

Zülfüqar Qodmanlı həmişə cəmiyyətin içərisində olan, mübahisələri yaradan səbəbləri öyrənən ziyalı idi. İstər onun poeziyası, istərsə də publisistikası cəmiyyətin rənglərini dəqiq və aydın göstərməyə xidmət edirdi. Yaxşı yadımdadır, həmişə söhbətlərində qeyd edirdi ki, mən sənin əməllərində insanlığa xidmət görürəm. Ona görə də şeirlərimdə yaxşı bir insanı tərənnüm etmək, yaxşı əməli daha aydın göstərmək istəyəndə sənin obrazını gözlərimin önünə alıram.

İlk baxışdan elə görünə bilər ki, Z.Qodmanlının ünvanıma dediyi sözlər bir dostun şəxsi qənaətidir. Buna söz yox. Ancaq şair, bir sözlə, yazar üçün cəmiyyətə faydalı olan dəyəri tərənnüm edərkən hər hansı bir obraza istinad etməsi də təbii qarşılanmalıdır.

*"Böyük portretin işığı"* kitabının müəllifləri - Ə.Xələfli və C.Zallı Zülfüqar Qodmanlının öz dövrünə, dövrünün insanlarına münasibətini təhlil edərkən məramlarını da səmimi şəkildə bildirməkdən çəkinmirlər: *"İnsanların həyata münasibətini ağ-qara rənglərinin təzadları ilə açmaq istəmişik. Ağ rəngin həyat üçün əsas aparıcı olduğunu nə qədər düşünsək də, qara rəng də ağ rənglə müvazidir, həyatdakı harmoniyada xüsusi rolu var. Bəlkə də, qara rəngsiz ağ rəngi axıra qədər dərk etmək mümkün olmazdı. Əgər Z.Qodmanlının əsəri boyu yaxşılığın mahiyyəti pisliklərin fonunda şərh edilirsə, demək, yaxşı adamların da təbiəti pislərin fonunda daha aydın görünə bilir. Ş.Cəfərovu tanıyan şairlər onun təbiətinin üstün keyfiyyətlərini məhz ona qarşı haqsız olan, bir yaxşı insanın yolunu kəsməyə cəhd edən, bir yaxşının mənəvi varlığına hər vaxt zərbə vurmağa cəhd edənlərin əməlləri ilə müqayisəyə çəkir. İnsanlığın əsas yolu doğru-düzgün bildiyi yoldur və insanlığın da gücü, dəyəri bu yola sədaqətində daha aydın görünür. Zülfüqar Qodmanlı Ş.Cəfərovu məhz belə görür, belə tanıyırdı..."*. Göründüyü kimi Zülfüqar Qodmanlının mövqeyini müəlliflər doğru-düzgün qavrayıblar. Axı həqiqətən cəmiyyətdəki pisliklərin, başqasının qarşısına daş atanların mövqeyi təqdir olunsaydı, onda həyatın inkişafı nəinki dayanar, bəlkə, əksinə hərəkət edərdi. Axı bəşər nəsli yaranan gündən bəri ağıl, düşüncə, insanlığı qorumaq hissi daha üstün mövqe tutub. Həyat da məhz bu üstün münasibətin sayəsində yeni inkişaf pillələri qət edib. Söhbət onda deyil ki, Zülfüqar Qodmanlı məni, yəni əsərinin qəhrəmanı Şəddat Cəfərovu necə görür. Əsas odur ki, o, gördüyünü bir fakt kimi qəbul edir. Və məhz insanlığa münasibətini öz sənətinin dili ilə ifadə etməyə çalışır. Mənəvi inkişafda əsas istinad nədir. Yəqin ki, həyatdakı daha üstün, dəyəri uca olan keyfiyyətləri idealizə olunması elə inkişaf üçün əsas istinaddır. Bunu da cəmiyyətin içərisində seçilmiş olanlar, yəni böyük sənətkarlar öz əsərləri ilə insanlara çatdırır.

Bir anlığa düşünək ki, Dədə Qorqud kitabı, Manas dastanı, yaxud da Homerin məşhur poemaları - *"Odissey"i, "İlliada"*sı yaranmayıb, Koroğlu dastanı yoxdur. Onda cəmiyyətin sonrakı mərhələdəki inkişafının əsas qaynaqlarını harada, necə axtarmaq olardı. Əlbəttə, tarixi sərvətlərə də qərəzli yanaşanlar çoxdur. Biri qalxıb Qaçaq Nəbini, Həcəri ittiham edir. Mən yaxşı başa düşürəm ki, onlar xalqa xəyanət yolu tuturlar. Demək, əsas qəhrəmanlarımızdan məhrum etməklə bizi gücsüzləşdirmək, düşmən qabağında mənəvi cəhətdən tərki-silah vəziyyətinə gətirmək məqsədi güdürlər. Bütün hallarda sənətkarlar humanizmi, insansevərliyi daha üstün tutmalı və tarixi həqiqəti qorumağa çalışmalıdırlar.

*"Böyük portretin işığı"* kitabının müəllifləri düşüncələri ilə həm də öz mövqelərini ədəbi-fəlsəfi ümumiləşdirmələrlə olsa da, oxucuya çox aydın çatdırırlar: *"Humanizm, insansevərlik bəşər nəslinin mənəvi mühitində əsas istinaddır. İnsansevərlikdən imtina olunarsa, humanizm bir dəyər kimi gözdən salınarsa, onda cəmiyyətdə barbarlıq baş alıb gedər. Vandalizm nəinki yaradılmış maddi dəyərləri, eləcə də mənəvi dəyərləri də dağıdardı. Çünki insansevərliyə istinad olunaraq insanlar arasında bir-birinə inam hissi yaranır, dostluq münasibətləri formalaşır, ünsiyyət bəşər nəslinin mənəvi mühitində nizamın əsas qoruyucusuna çevrilir"*. Bunlar mənim ruhumu dinləndirən məqamlardır. Çünki mənim də həyat kredom insanlığa xidmət olub. Yanımda işləməyə başlayan hər bir gəncə təbliğ etmişəm ki, mümkün qədər öz əməlləri ilə cəmiyyətə fayda verməyə çalışsınlar. Əlbəttə, elələri də olub ki, düzgün nəticə çıxarmayıb, yalnız öz mənafeyini düşünüblər. Belələri çox tez sıradan çıxıb. Bəlkə də maddi olaraq nəsə qazanıblar, amma cəmiyyət içərisində hörmət qazana bilməyiblər. Əgər belə demək mümkünsə, onda oxucu özü düşünsün. Şairlər vəsf etdikləri obrazı haradan, necə tapırlar? Əlbəttə, bunun üçün heç bir şair dünya səyahətinə çıxmır. Sadəcə öz müşahidələri ilə onlara yaxın olan insanlarda axtardıqları keyfiyyəti görür və bunu tərənnüm etməyə üstünlük verirlər. Elə bu səbəbdən də bir şair mənim adımı əsərində istinad kimi götürürsə, bu təkcə mənə hörmət deyil, cəmiyyətə xidmət edən hər kəsə hörmətin və ehtiramın ifadəsidir. Müəlliflər çox maraqlı, ritorik bir sual qoyur. Bir qədər təvazökarlıqdan kənar olsa da, mətndə heç bir dəyişiklik etmədən sualın cavabını oxucu diqqətinə çatdırmaq istəyirəm: *"Sual oluna bilər: Nə üçün Ş.Cəfərov haqqında bu qədər geniş yazılır? Publisistlər onun həyatının ən müxtəlif tərəflərini yazıya gətirməyə çalışırlar. Şairlər onun obrazına təkrar-təkrar müraciət etməkdən usanmırlar. Bütün bunların hamısının məğzində, mayasında yuxarıda qeyd etdiyimiz insansevərlik keyfiyyətləri dayanır. Əgər Şəddad müəllim bir insan kimi əməli ilə, ünsiyyəti və münasibətilə insansevərliyə dəyər kimi istinad eləməsə, onda qətiyyən təqdir olunmazdı. Şübhəsiz, Şəddad müəllimin xatirini çox istəyən, hörmətini gətirən, yolunu saxlayan adamlar da az deyil. Çünki hətta onu az tanıyan adamlar belə onun məşhurluğuna, tanınmışlığına əsas görürlər"*. Yuxarıda qeyd etdiyim kimi süni şəkildə tanınmağa, məşhurlaşmağa çalışmaq son nəticədə iflas yaradır. Bunun üçün gərək cəmiyyətə qəlbən, səmimiyyətinlə xidmət edə biləsən. Əks təqdirdə özünə qarşı bir növ allergiya yaratmalı olacaqsan.

İnsanı ucaldan keyfiyyətlər sırasında dostluq başqasına hörmət, ehtiram kimi xüsusiyyətlər daha üstün tutulur. Əgər biri ilə dostluq edirsənsə, gərək onun özündən asılı olmayan acılığını da qəbul edəsən. Əks təqdirdə cəmiyyətdə tənha qalarsan, unudularsan. Təsadüfi deyil ki, bir çox vəzifə, mənsəb sahibləri maddi imkanlarına güvənərək insanlara qarşı sərt mövqe tuturlar. Belələrinin əməli daxili etiraz doğurur. Hətta üzlərinə deyilməsə belə insanlar onlardan ikrah edirlər. Mən adamların dostluq münasibətlərinə dəyər vermələrini həmişə yüksək tutmuşam. Təsadüfi deyil ki, 40 il bundan əvvəl səmimi ünsiyyət qurduğum gənclər aradan keçən uzun illərdən sonra mənimlə görüşəndə sanki uzun ayrılığın, həsrətin sonu olaraq sevinclərini gizlətmirlər. Bax budur, insanı qoruyan, yaşadan, onu həyatla mübarizədə səfərbər edən. Belə münasibət, əlbəttə ki, təqdir olunmalıdır. Müəlliflərin *"Böyük portretin işığı"* kitabındakı qeydləri elə indinin özündə də məndə xoş ovqat yaradır. Çünki dostluqda sədaqəti təqdir etdiyinə görə mənim də həyata münasibətimi düzgün əks etdirir: *"Əgər cəmiyyətin özünə hörmət edən mənəvi mühitində saflığı, ucalığı əsas dəyər kimi qoruyan hər hansı bir kəs biri ilə dostluq münasibəti saxlayırsa, onda başqaları da ona rəğbətli münasibət bəsləyirlər. Başqa sözlə, "dostunu göstər, sənin necə adam olduğunu da mən deyim" - məsəlinin yaranması, əslində, müdrik insanların dəqiq həyati hadisələrə, insan münasibətlərinə müşahidəli mövqeyin nəticəsidir. Şəddad müəllim dost olmağı bacaran kişidir. Çünki onun mənəvi münasibətlər mühitindəki görünən təbiəti əsas dəyərlərə, sədaqətə güvənclidir. Nə üçün Şəddad müəllimin özünə bu qədər doğma bildiyi insanlar var? Çünki o, hər kəslə özünün mənafeyindən yox, cəmiyyətin mövqeyindən yanaşır. Yeri gələndə, öz dostları üçün məmnuniyyətlə güzəşt etməkdən də çəkinmir. Bu da onun təbiət etibarilə mərd insan olduğunu təsdiqləyir"*. Zənnimcə, müəlliflərin haqqımda dedikləri *"Dost olmağı bacaran kişidir"* ifadəsi kifayət qədər səmimidir. Axı yaddaşımı vərəqlədikcə tanış olduğum, yaxınlıq münasibətlərində dostluq əlaqələri qurduğum adamlardan kiminsə məndən incidiyini yaddaşıma gətirə bilmirəm. Hər kəs öz əməlində görünür. Mənim də həyat yolumda *"başqalarına hörmət et, onda sən də hörmətli olarsan"* düsturu həmişə qəlbimə hakim olub.

Müəlliflər *"Böyük portretin işığı"*nda dostluğu idealizə edirlər. Hətta cəmiyyət hadisələrinin müəyyən ahəngə tabe tutulmasında da dostluğun mənəvi dəyər kimi təsiredici gücdə olduğunu təkrar-təkrar göstərirlər.

Əli Rza Xələflinin *"Yaddaşa aparan yollar"* adlı çox möhtəşəm bir kitabını çap etmişəm. Həmin kitabın ədəbi qəhrəmanı şair, şərqşünas, həm də eyni zamanda çox müdrik bir insan olaraq tanınan Hafiz Rüstəmdir. Həmin kitabda Xələfli şərq mühitində dosta verilən dəyər haqqında çox ilhamlı duyğularla bəhs edir: *"İnsan münasibətlərində dostluq anlamının tarixi, bəlkə də, ilkin şüurun tarixilə həmyaşıddır. Ümumiyyətlə, sivilizasiyanın indiki mərhələyə çatmasında bəşər nəsillərinin mənəvi dəyər olaraq dostluq hisslərini, dostluğun mahiyyətini bir-birinə ötürməsinin böyük əhəmiyyəti var. Azərbaycan xalqı da dostluğu müqəddəs ənənə kimi yaşadıb, onu ən qiymətli mənəvi dəyərə çevirib. Dost insanın tamamlayıcı mahiyyətidir, onun şəxsiyyətinin bütövləşməsindən əvəzsiz qida mənbəyidir. Şərq dostu müqəddəs tutur. Şərqin çox zəngin mənəvi sərvət xəzinəsində, o cümlədən, Azərbaycan mədəniyyətində, ədəbiyyatında və incəsənətində dostun obrazı çox böyük məhəbbətlə tərənnüm olunub. Bu məzmunda bir Şərq müdrikliyi, Şərq hikməti fikrin anoloqu olaraq "hər şeyin təzəsi, dostun köhnəsi" deyimində də yaşayır"*. **"Yaddaşa aparan yollar" (səh. 185)** Zənnimcə, çox dəyərli düşüncələrdir.

Demək, insanlar dostluq haqqında bu cür dəyərli düşüncələri yazıdan oxuyarkən yəqin ki, öz həyatları haqqında mütləq düşünməli olurlar. Kimlərlə dostluq ediblər, kimlərlə mənəvi əlaqələr qurublar, dostluq münasibətlərində səhvləri olubmu? Bu səhvlərdən sonralar necə nəticələr çıxarıblar - bütün bu sualları yəqin ki, mətni oxuyan hər kəs özünə vermiş olur.

Deyirlər ki, insan övladında bir xudbinlik xasiyyəti də olur. Başqalarının üstünlüyü həzm edə bilmir. Əgər kiminsə qəlbində xudbinlik özünə əsaslı yer tutursa, onda beləsi öz dostlarına münasibətdə də xasiyyətindən geri çəkilməyəcək, başqa sözlə, dostlarının da paxıllığını çəkəcək. Zənnimcə, bu cəhət insanın çox ağır faciəsidir. İnsan gec-tez bu faciənin qurbanı olur.

***(Davamı 11-ci səhifədə)***

# ZÜLFÜQARIN "YAXŞILIĞ"I

*(Əvvəli 10-cu səhifədə)*

Onu da deyim ki, *"Böyük portretin işığı"* kitabının müəllifləri üç yaradıcı qardaşla indi respublikamızın görkəmli şair və publisistləri kimi tanınan Zülfüqar Qodmanlı, Ağaddin Mansurzadə və Fəxrəddin Ziya qardaşları ilə münasibətlərimə də ədəbi publisistik üslublarına sadiq qalaraq aydınlıq gətirirlər.

Müəlliflər doğru olaraq yazırlar ki, mənim bu qardaşlarla ünsiyyətimin əsasında səmimiyyət dayanır. Bir-birimizdən təmənna ummamışıq. Onlar məni də özlərinə qardaş biliblər. Əsas odur ki, biz bütün çətinliklərdə bir-birimizə dayaq olmağa çalışmışıq. Hər biri bütün yaradıcılıqları boyu yeri gəldikcə məni ədəbi düşüncələrdə xatırlayıblar. Bədii obraza çeviriblər. Bəlkə də, mənim timsalımda özlərinin arzuladıqları obrazı yaradıblar.

İndilikdə Zülfüqar Qodmanlı ilə bağlı bəzi məqamlara bir az da aydınlıq gətirmək istərdim. Bunun üçün gərək yenə *"Böyük portretin işığı"* kitabına müraciət edəm: *"Zülfüqar Qodmanlının yüksək, səmimiyyət çalarlı duyğularını ifadə edən şeirləri az deyil. Ancaq onun qəzəl yaradıcılığında öz ətrini, təravətini itirməyən lirik şeirləri də var. Və bu lirik qəzəllərdən birini də dostu Şəddad Cəfərova həsr edib. "Olmasa" rədifli qəzəlin lirik ovqatı elə ilk misralardanca oxucunun diqqətini cəlb edir. Müəllif xüsusi bir şərtlə - "Olmasa" rədifi ilə nələrin mümkünsüz olduğunu sözün ecazkar gücü ilə araya-ərsəyə gətirir:*

*İnsan azad ola bilməz, sevgi azad olmasa,*
*Vətən, el şad ola bilməz, övladı şad olmasa.*

*Göründüyü kimi, burada Vətənin də, elin də, yəni xalqın da şad olması üçün əsas şərt övladın şadlığıdır. Övladın xoş güzəranı yoxsa, deməli, o Vətən də nisgil içindədir. O xalqın da üzü gülə bilməz. Amma bu harmoniyanın tamlığı üçün daha bir şərt var. Bu şərt də ondan ibarətdir ki, gərək sevgi azad olsun - insanın insana sevgisi, insanın təbiətə sevgisi, insanın Vətənə sevgisi... bəli, bu sevgi duyğularının azadlığı yoxdursa, heç onda insan özü də bütövlükdə azad ola bilməz."*. Burada Z.Qodmanlının "Olmasa" rədifli qəzəli xatırlanır. Əlbəttə, indi həmin qəzəlin necə, nə vaxt yazıldığı da yaddaşımda təzələnir. Onsuz, elə sənətin bir cəhəti də bununla bağlıdır ki, o, həyatın daha şirin tərəflərini insanlara təkrar xatırladır. Hər kəs olub keçənləri yaddaşında təzələməklə ruhi qida alır.

Şeirdə insanlığın azadlığı tərənnüm olur. Yəqin ki, azadlığın yaratdığı mənəvi ucalıqlar şairi həmişə düşündürüb.

Z.Qodmanlı özü ruh etibarı ilə azad sənətkar idi. Onun bütün həyatı boyu insanlara münasibətində özünün şəxsi qənaətləri əsas olmuşdu. O, kiminsə diktəsi ilə hərəkət etmirdi.

Müəlliflər Z.Qodmanlının *"Olmasa"* rədifli qəzəlini təhlil edərkən ədəbiyyat tariximizlə bağlı məqamlara da diqqət yetirirlər. Bu da onu göstərir ki, *"Böyük portretin işığı"*nda müəlliflərin məqsədi təkcə məni tərənnüm etmək deyil. Həyatın işıqlı tərəflərinə diqqəti yönəltmək onların əsas məqsədi olub. Şübhəsiz, bu zaman Z.Qodmanlının rəvan təblə yazılmış qəzəli də onlara fikirlərini ifadə etmək üçün əsas verib: *"Təbiidir ki, sevgilərin azad olmadığı mühitdə "Aşıq Qərib" faciəsi var, "Xosrov və Şirin" problemi var. Və təbiidir ki, Fərhad dərdi-ağrısı var. Şirin ona görə taleyi ziddiyyətlərə tuş gəlir. Şirinin Bəxti ona görə gətirmir ki, o, öz zəmanəsində həqiqi aşiqə - Fərhada zamanın biganəliyini görür. Yoxdur nə Aşıq Qərib, yoxdur nə də Xosrov-Şirin,*

*Neynəyər Şirin biganə dövrü Fərhad olmasa.*

*Şair yaxşı bilir ki, ürəkləri fəth edən şeir yazmaq üçün ilhamın qüdrəti olmalıdır. Başqa sözlə, şeirin nüvəsində dağ enerjisi, qüdrəti yoxdursa, yaradılmış misralar öləziyən şam təsiri bağışlayar. Hətta ocaq təsvvürü yaratsa da, külü soyumuş ocağa bənzəyər. Sözlərin odlu və atəşli olması üçün gərək şairin mənəvi mühitində yanğılar olsun, alovlar sancsın. Bax, onda şairin yaratdığı söz də yandırıcı olar.*

*Qəlbləri fəth etməyə şeirində dağ qüdrəti var,*
*Sözlərin yandırmaz heç vaxt, sözdəki od olmasa.*

*Bir növ şairi dağa-daşa salan əsas qayğılanma dostuna münasibətlə bağlıdır. Əgər şairin təlqin etdiyi hissi bir qədər də dərindən açmalı olsaq, gərək hər bir şagird ustadının qədrini bilsin. Çünki ustad, həm də yetirməsinin munisidir, əzizidir, təbibidir. Sanki misralar özü dil açıb şairin təqdim edəcəyi obrazın özünü istəyir. O ustad isə hələ qəzəldə adını çəkmədiyi, Sanki buna bütün varlığı ilə yön tutduğu simadır. O simadır ki, şair bu qəzəldə yalnız onu görür, ustad kimi görür, sevdalı bir insan kimi görür, Vətənini sevən şəxsiyyət kimi görür. Yaradıcılığı boyu, bəlkə də, taleyin ən yaxşı qisməti kimi rastlaşdığı insanı görür".* Əlbəttə, müəlliflər qeyd edirlər ki, şairin axtardığı obraz məni nişan verir. Yəni prototip olaraq göstərici oxucuya aydın olur. Mənim üçün də maraqlıdır. Deməli, şair öz əsərini yaradarkən ustadlığın ictimai mahiyyətinə daha üstün dəyər verir. Onun qənaətlərində əsas tutulan cəhət budur ki, cəmiyyətin mənəvi inkişafında bilicilərin, təcrübə sahiblərinin, başqa sözlə desək, ustadların rolu əvəzsizdir.

O müəllim, o ustad özünü xoşbəxt hesab edə bilər ki, öz bildiklərini örtüdə saxlamayıb. Öyrənmək istəyənlərə vaxtında çatdırıb. Əslində elə cəmiyyətin varisliyinin qorunması da ustadlığın kamilliyi ilə bağlıdır. Müəlliflər Z.Qodmanlının mətninə əsaslanaraq Aşıq Ələsgəri də xatırlayırlar: *"Ümumi "ustad" adı ilə oxucusunun nəzər-diqqətini onun üzərinə yönəldir:*

*Kəm baxar ustadına kim ki, gözündən kor olar,*
*Bir ələf də göylərə baş çəkməz ustad olmasa.*

*Yaxşı deyir... yaxşı demək üçün xalqının fikir xəzinəsinə istinad edir. Aşıq Ələsgər də bir vaxt deyirdi ki, "ustadına kəm baxanın gözlərinə qan damar". Elə buna görə də o, öz dostunu, həm də ustadı kimi xarakterizə edir. Dostunun şəninə özünün könül dünyasında, könül mülkündə qurduğu sarayın əzəmətini hər kəsə göstərməkdən çəkinmir. Sonsuz duyğu ilə könül varını kimsəyə göstərməkdən usanmır. Dostunun şəninə sevgisindən ucaltdığı sarayın öz dünyası ilə əbədi yaşayacağına da inanır.*

*Mən könül mülkündə sevgimdən ucaltdım bir saray,*
*Ömr edər dünyam ilə, dünya mənə yad olmasa.*

*Əlbəttə, yenə şərt var, amma gərək dünya da belə dostluqları, belə sədaqətli, sevgili münasibətləri unutmasın. Həyatını cəmiyyətə, insanlara, dünya ilə başbaşa qalmaqdan usanmayan insanlara dünyanın özü də yad olmamalıdır. Şair dostunun tərənnümü üçün sözlərin ecazkar gücündən axıracan faydalanmağa çalışır".* Çox dəqiq və aydın mülahizələrdir, açığı, mənim özümə də bir məmnunluq bəxş edən mülahizələrdir. Bir daha inanıram ki, kimə vaxtında nə öyrətmişəmsə, onu xalqım üçün etmişəm. Xalqımın mənəvi mühitinin zənginləşməsi üçün etmişəm. Bu gün həyatımdan ötüb-keçən həmin illərə qayıdarkən, əlbəttə, yaddaşımla qayıdarkən həmin xatirələr mənə sonsuz məmnunluq bəxş edir.

Bir sözlə, həyat biz istəyib-istəmədiyimizdən asılı olmayaraq ümumi axarından qalmır. Onsuz da cəmiyyətin həyatı da dəniz kimidir. Dəniz çirkabı qəbul etmir. Özündən kənara atır, dənizdə özünü təmizləmək gücü var. Beləcə, mən həyatı da dənizlə müqayisə edirəm. Yaxşı bilirəm ki, cəmiyyət onsuz da arınır, təmizlənir. Sadəcə cəmiyyətin mənəviyyatına zərbə vuran insanlar bu arınmanı, bu təmizlənməni ləngidir.

Hər kəs öz gücü ilə həyatda yerini tutur. Bu güc təbii axarla insana yardımçı olursa, həmin şəxsdən cəmiyyət böyük fayda görür. Amma bacarığı, qabiliyyəti faydalı bir iş görməyə çatmayanı qohumbazlıqla, rüşvətlə vəzifəyə gətirəndə beləsi cəmiyyətə fayda verə bilmir. Ona görə də mənim düşüncələrimdə həyatda yerini özünün potensialı ilə qazanmış adamlar daha üstün tutulur. Onların hər bir əməlini mən özümün əməlim kimi qəbul edirəm.

Həmişə inanmışam ki, nə qədər bədxahlarım olurolsun, bir haqlı insan axır ki, qabağa çıxacaq, öz münasibətini bildirəcək. Çünki haqlı söz gücsüzlər nə qədər birləşir, birləşsin, daha qüdrətlidir, daha dəyərlidir. Zülfüqar Qodmanlı da öz əsərində məhz haqsızlara qalib gələn, sözü, düşüncəsi haqsızlardan daha üstün olan obrazı tərənnüm edir. *"Böyük portretin işığı"* kitabının müəllifləri Z.Qodmanlının əsəri əsasında öz düşüncələrini davam etdirir. Könül duyğulandıran ifadə tərzi ilə cəmiyyətə işıq tutan insanları bir daha daha qabarıq göstərməyə çalışırlar: *"Könül sarayındakı zənginlik aləmini yaradan dostuna o qədər bəzək vurmaq istəyir ki, qoy onun parlaq obrazı günəş kimi yansın, işıqlı olsun. Əgər bir zəlzələ - əlbəttə, bədxahlarının yaratdığı uçqunlar, dedi-qodular, insanların dostluq münasibətlərini vurub-dağıdan böhtanlar olmasa, şairin sevgi ilə tərənnüm elədiyi dostluq sarayının çırağbanlığı lap bir yer kürəsinə də bəs eləyər. Şair kənardan əsən zəhərli yad nəfəsləri "qəfil bad" adlandırır:*

*Sözlərimdən min bəzək vurdum ona güntək yanar,*
*Çil-çıraq eylər bütün ərzi, qəfil bad olmasa.*

*Zülfüqar Qodmanlının yaxşı qəzəl təbi olub. Şeirdə dərin fəlsəfi ümumiləşdirmə yaratmaq gücü elə bu qəzəldə də bütün parlaqlığı ilə görünür. Həm də Zülfüqar Qodmanlının bir ilham sarıdan özünə poetik güvənclıyi də var. Çünki bu şeirdə də yada salır və bildirir ki, ondan şeir istəyən çoxdur. Və həm də hər kəs üçün də söz demək imkanındadır. Və hər kəsi öz sözü ilə sevindirə biləcəyinə də inamlıdır. Əsas odur ki, o, öz arxasında sözünün mənəvi dəyəri kimi könül mülkünün ən sədaqətli insanı kimi, başqa sözlə, əziz dostu kimi Şəddadı dayaq görsün".* Yəqin ki, şair bu qəzəli yazarkən elə həqiqətə dayaq olan adamları nəzərdə tutub. Düşüncələrinə uyğun gələn notları yazıya gətirib.

Əlbəttə, hər bir şairin sözü yaddaşa həzinlik gətirə bilməz, xatirəyə çevrilməz. Amma o şairlərin sözləri yaddaşa hopur, həzin xatirələrə çevrilir ki, orada müəllifin sözə vurduğu bəzəklər görünür. Qanadlı ifadələrlə müəllif öz ədəbi qəhrəmanını cəmiyyətdən kifayət qədər ucalığa qaldırır, onu örnək olaraq təqdim edir.

Zülfüqar Qodmanlı özü də cəmiyyətin yaxşı adamlarına arxalanıb. Bir vaxt kənddən gələn, ağır fəhləlik yolu keçən bir gənc olub. Əlbəttə, özünün fəallığı, zəhmətsevərliyi ilə təhsil yolunda inad göstərib. Oxuyub, cəmiyyətdə mövqe qazanıb. Bu da ona imkan verib ki, varlığında qaynayan duyğuları öz müşahidələri əsasında yazıya alsın. Məhz müəlliflərin yazdığı kimi o, sənət borcunu yerinə yetirmiş olur: *"Bir sözlə, Z.Qodmanlı yüksək poetik əhvalla bəyan eləyir ki, onda qorxardım, arxamda Şəddad olmayaydı. Şübhəsiz, burada şairin sözlərinə improvizə ilə yanaşdıq. Ən yaxşısı elə onun öz misralarında səslənən hökmü dinləməkdir:*

*Zülfüqar, sən yaz, yarat, səndən şeir istər hamı,*
*Onda sən qəm çəkginən arxanda Şəddad olmasa.*

*Hər bir şeirdə yatmış vulkan gücü var. Amma, əlbəttə, əgər o şeir sevgi ilə yazılıbsa, tərənnüm etdiyi obraz həqiqətən şairin varlığına hakim olubsa, o şeirin cazibə gücü həmişə qalacaq. Oxunan kimi araya-ərsəyə gələn kimi, həm müəllif haqqında, həm də tərənnüm olunan obraz haqqında kifayət qədər dolğun bilgi verəcək".* Açığı, mən Z.Qodmanlının xətrini çox istəyirdim. Çünki poeziyasında səmimi olduğu kimi, həyatda da səmimi idi. O, bir şair həyatı yaşadı. Baxmayaraq ki, ideologiya sahəsində də çalışmışdı. Radioda redaktor işləmişdi. Harada işləmişdisə, mütləq sözünün sahibi olmuşdu. Elə təqdim olunan qəzəlində də onun kifayət qədər səmimiyyətini açıq-aşkar duyuruq.

Müəlliflər qəzəli təhlil edərkən belə bir sual qoyurlar ki, bu qəzəl bizdə hansı təəssüratı oyadır. Və özləri də suala dolğun və aydın bir cavab verirlər: *"Birincisi, şairin özü haqqında kifayət qədər dolğun, ətraflı məlumat aldıq. Onun incə ruhlu bir şair olduğunu, kövrək bir qələm sahibi kimi tanındığını, yaradıcılığında həqiqi poetik güc olduğunu gördük, qavradıq. İkinci tərəf isə budur ki, tərənnüm etdiyi obrazın Vətənlə, xalqla bağlanmasıdır. Bu şeirdən anlayırıq ki, şairin tərənnüm etdiyi obraz. başqa sözlə, Şəddad Cəfərov Vətənini sevən bir insandır, yurduna çox bağlıdır. Bütün varlığı ilə insani dəyələrə güvənir. Bir kəs ki, insani dəyərlərə güvənir, demək, onun xalq arasında, insanlar içində hörməti həmişə olacaq. Şeirin təlqin elədiyi mənəvi yük budur. Verdiyi məntiqi hökm budur. Onu da qeyd etmək yerinə düşərdi ki, Z.Qodmanlının dostuna həsr etdiyi şeirlərdə zamana, ictimai mühitə obyektiv münasibət də var. Başqa sözlə, o, yaxşı görür ki, yol yaxşılar üçün həmişə yaxşı deyil. Və bunu da cəmiyyətdəki təzadlarla, yabançı qüvvələrin təsirilə bağlayır".* Bu təhlildə də söhbət konkret obrazdan gedir. Cəmiyyətin yaxşı adamlarının cəmiyyətə dayaq ola bilməsindən gedir. Vətəni də yaşatmaq üçün gərək sözün həqiqi mənasında vətəndaşlığın da səmimi olsun.

Zülfüqar Qodmanlı yaradıcılığında təlqin etdiyi insani duyğuları bir fərd üzərinə cəmləmir. Mütləq ona ictimai məzmun verir. Bu da, əlbəttə, onun sənətkarlıq imkanları ilə bağlıdır. O, bir sənətkar kimi artıq ustadlıq mərtəbəsinə çatmışdı.

Mən çox istəyərdim ki, Zülfüqar Qodmanlının yaradıcılığı daha əhatəli öyrənilsin, kitabları nəfis şəkildə müasir dövrün tələblərinə uyğun yüksək poliqrafik səviyyədə çap olunsun.

Zülfüqar Qodmanlı kimi şairlər təkcə sənət adamları kimi yox, həm də insan kimi əbədi hörmətə layiqdir.

***27.12.2022***